# ESTETİK TƏRBİYƏ, KİTAB VƏ MÜTALİƏ

## *OXUCULARIN BƏDİİ-ESTETİK BİLİKLƏRİNİN FORMALAŞMASI*

*ARAŞDIRMA*

*Knyaz ASLAN*

Qavrayış hissi-intellektual xüsusiyyətli idrakdır. Bununla belə o, ayrıca hadisələrə – ədəbi-bədii əsərlərə, şəkillərə, abidələrə, musiqiyə, tamaşaya, filmə və s. aiddir. Lakin insan idraki varlıqdır, bu, onun mühüm "irsi" əlamətidir.

İnsan adi şüurun hüdudlarında bir hadisədən digərinə (qavrayışdan qavrayışa) hərəkət edir və müntəzəm olaraq mövzu sahəsi haqqında informasiya toplayır. Lakin hətta ən geniş şəxsi təcrübə belə fərdə bu yolla mövzu sahəsini tam əhatə və dərk etməyə imkan verməyəcəkdir, ona görə ki, bədii hadisələr aləmi olduqca zəngindir, onların mahiyyəti isə heç zaman səthi olmur.

Artıq bədii ədəbiyyat, "incəsənət", "bəddi ədəbiyyatın və incəsənətin növləri", "incəsənətin janrları" anlayışları ilə tanışlıq, başqa sözlə, bədii ədəbiyyatı və incəsənəti başqa sahələrdən, həmçinin, bir janrı digərindən fərqləndirən mühüm əlamətləri başa düşmək oxuculara bədii mədəniyyət sahəsini dəqiq təsəvvür etməyə, bədii sərvətlərin ucsuz-bucaqsız dünyasını qavramağa imkan yaradır. İstənilən yeni obyekt onun üçün başa düşülən olur və əsas əlamətlərinə görə oxşar obyektlər sırasına daxil edilir.

Burada biz hamıya yaxşı tanış olan ziddiyyətlə qarşılaşırıq: insan əslində bədii düşüncə sahəsinə keçərkən, eyni zamanda elmi fikir qatına daxil olur. Əslində isə bu ziddiyyət zahiridir. Söhbət incəsənətin özünün təcrübədə qazandığı anlayışlardan, bədii yaradıcılığın özünün əsasında dayanan anlayışlardan gedir.

Sənətkar obrazlarla düşünür, lakin öz fəaliyyətinin nəticələrini incəsənət qanunları ilə yerinə yetirir. Bu, o deməkdir ki, elmi empirik təfəkkür (yalnız hissi qavrayışın, təcrübənin əsas götürülməsi) bədii təfəkkürün əsas cizgilərini təşkil edir.

***Beləliklə, bədii mədəniyyətin xüsusiyyətlərində hadisə və proseslərin ilkin idrak dərəcəsi empirik dərəcə adlanır.*** Bu mərhələyə xarakterik olan cəhət budur ki, oxucunun konkret təcrübəsi bədii və incəsənət əsərinin qavranılması zamanı adi qaydada nizama düşür, sistemləşir və araşdırıla bilmək dərəcəsində olur.

Məhz ümumi anlayışlara əsaslanan konkret biliklərin sistemləşdirilməsi formal məntiqi nəticələrə əsaslanan təfəkkürün - diskursiv təfəkkürün başlıca əlaməti sayılır.

Obyektlərin tanınması (müəyyənləşdirilməsi) və təsnifləşdirilməsi idrakın empirik səviyyəsinin əsas qeseoloji üsullarıdır. Şəxsi təhsil işində onlar mühüm rol oynayırlar.

Tamamilə əhəmiyyətlidir ki, məntiqi anlayışlara əsaslansalar da, tanıma (müəyyənləşdirmə) prosesləri obrazlarla (təsəvvürlərlə) düşüncəyə aiddir, yəni incəsənətin öz təbiəti ilə sıx bağlıdır.

Beləliklə, incəsənətin empirik dərki ümumi anlayışların köməyi ilə şüurda yaranan, konkret qavrayış təcrübəsinə əsaslanan əyani idrakdır. O, bu təcrübəni nizama salır və məlum materialda hələ məlum olmayanlar haqqında mühakimə yürütməyə müəyyən mənada imkan yaradır.

Həmin məlum cəhətlərdə oxucu özünə yaxın olanları ayırır, ona daha dərin təsir bağışlayan məqamları seçir və buna uyğun olaraq özünün əsas diqqətini sonra gələcək oxşar obyektlərə yönəldir. Bir-biri ilə hər hansı şəkildə bağlı olan müəyyən bədii obyektlərə

yönəlmə məhz bu cür baş verir. Bununla da qazanılmış təcrübə və bilik obyektlər arasında yeni əlaqə tiplərinin – tarixi-bədii (genetik) bağlılığın meydana gəlməsinə səbəb olur.

***Bədii mədəniyyət hadisə və prosesləri incəsənət idrakının ikinci dərəcəsinə – tarixi-bədii (genetik) dərəcəsinə keçidin daha xarakterik cəhəti onunla bağlıdır ki, oxucu bir müəllifin bir qrup əsərini seçir, müəllif fərdiyyətini (özünəməxsus-luğunu) fərqləndirməyə başlayır və əsərlərlə yanaşı olaraq onların yaradıcısının şəxsiyyətinə də canlı maraq göstərməyə başlayır.*** Bu maraq əsas əlamət kimi meydana çıxır və oxucunun, dinləyicinin, tamaşaçının şüuruna güclü təsir göstərir.

Məsələn, oxucu Səməd Vurğunun "Vaqif" dramını oxuyaraq dərindən təsirlənir. O, XVIII əsrdə yaşamış görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin başına gələn faciəli hadisələrdən mütəəssir olur, lakin bununla kifayətlənməyərək həmin əsərin müəllifi, xalq şairi Səməd Vurğun haqqında düşünməyə başlayır. Oxucu öyrənib bilmək istəyir ki, Səməd Vurğun "Vaqif" dramını harada, nə vaxt və nə üçün yazıb? Şair bu əsəri yazarkən neçə yaşında imiş? "Vaqif" dramını yazmağa başlayarkən Səməd Vurğunun öz həyatı necə keçib və bu əsəri yazarkən hansı vəziyyətdə yaşayırmış? Səməd Vurğun həyatdan və sənətdən nə umurmuş? Bu əsərlə nə demək istəyirmiş?

Beləliklə, oxucu özü üçün müəyyən mənada ədəbiyyatşünasa çevrilir, hər bir məqamı aydın şəkildə qeyd edir, bu əsərin meydana gəlməsinə nə qədər uzun vaxt sərf olunduğunu, əsərin yazılmasına gətirib çıxaran səbəbləri aşkara çıxarır.

Görkəmli təsviri sənət tarixçisi L.Venturi yazır: "Sənətkarın nə yaratdığını başa düşmək üçün mütləq onun nə yaratmaq istədiyini bilmək lazımdır".

Bu keçid psixologiyasını rus şairi M.A.Svetlov özünəməxsus şəkildə belə ifadə etmişdir: "Mənə nağıl lazım deyil. Mənə nağılçı lazımdır".

Bununla yanaşı olaraq, bir yaradıcı şəxsiyyətin bioqrafiyasının öyrənilməsi bir sıra görkəmli sənətkarlarla, o cümlədən həmin yazıçının ustadları, qələm yoldaşları, şagirdləri və ardıcılları ilə tanışlığa imkan yaradır. Başqa sözlə, oxucu bir yazıçının həyat və yaradıcılığını öyrənməklə incəsənət tarixinin geniş mənzərəsini, bədii ədəbiyyatın müxtəlif növlərinin və janrlarının xüsusiyyətlərini yaddaşına köçürür.

Belə ki, Səməd Vurğunun həyat və yaradıcılığını öyrənən oxucu istəristəməz şairin Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Molla Pənah Vaqif, Aşıq Ələsgər kimi ustadları, Mikayıl Müşfiq, Hüseyn Cavid, Osman Sarıvəlli, Süleyman Rüstəm, Rəsul Rza, Süleyman Rəhimov, Mehdi Hüseyn, Əli Vəliyev, Məmməd Səid Ordubadi, Üzeyir Hacıbəyov, Aşıq Şəmşir kimi sənət dostları, Əliağa Kürçaylı, Nəbi Xəzri, Hüseyn Arif, Bəxtiyar Vahabzadə, Məmməd Araz, Zəlimxan Yaqub kimi davamçıları ilə tanış olur, onların ədəbi-bədii irsi haqqında müəyyən məlumat toplayır.

***İncəsənət idrakının üçüncü ən yüksək dərəcəsi nəzəri, yaxud fəlsəfi-estetik dərəcədir.*** Hazırda o, obyektiv zərurət kimi qəbul edilir.

Müasir dövrdə estetik tərbiyənin ən mühüm vəzifəsi şəxsiyyətin estetika sahəsində nəzəri hazırlığı ilə estetik və bədii təcrübəsinin üzvi şəkildə birləşdirilməsidir. Bu nöqteyi-nəzəri hazırda bədii-estetik tərbiyə nəzəriyyəçilərinin çoxu müdafiə edir.

Biz gördük ki, oxucu özünün bədii-estetik təcrübəsini dərk edərkən və nizama salarkən incəsənət idrakının empirik dərəcəsində ümumi anlayışların müəyyən dairəsi olmadan ötüşə bilmir. İncəsənət aləminin dərkinin tarixi mərhələsinə keçərkən estetikanın əsaslarının mənimsənilməsi tarixi-bədii proseslər haqqında nəzəri biliklərin alınması şəklində davam edir.

Məntiqi idrak dərəcəsində artıq estetikanın məntiqi anlayışları və kateqoriyaları ilə fəal düşüncə tələb olunur. Bu zaman elə əqli mədəniyyət lazım gəlir ki, o, oxucunu, tamaşaçını, dinləyicini peşəkar tənqidçiyə yaxınlaşdıra bilsin.

Bədii mədəniyyətin hadisə və proseslərinin dərkində oxucu bir səviyyədən digərinə yüksələrkən abstraktdan konkretə, yəni mücərrəddən dəqiqə, ümumidən xüsusiyə, cəmdən təkə, toplumdan təkcəyə doğru qalxır ki, bunun da nəticəsində həmin əşya təfəkkürdə müəyyənlərin çoxluğu, həmin əşyanın hərtərəfli elmi biliyi şəklində çıxış edir.

Fikirlərin bu cür hərəkətində zəruri olaraq biliklərin ümumi istiqamət prinsipi meydana çıxır: hadisədən mahiyyətə, birinci dərəcəli mahiyyətdən ikinci dərəcəli mahiyyətə və s.

*